**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 327**

# CƏNUBİ QAFQAZ GEOSİYASƏTİNİN POSTMÜHARİBƏ VEKTORLARI

**Cəfər SEYİDOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 sentyabr 2022; çapa qəbul edilmişdir: 20 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022

Received: 19th of September, 2022; accepted: 20th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *İkinci Qarabağ müharibəsi, Cənubi Qafqaz, deokkupsiya, rekonfiqurasiya, aqressiv ritorika, geokonstruksiya*

## Giriş

44 günlük müharibədə ərazilərini işğaldan azad edən Azərbaycan Cənubi Qafqazda pozitiv və konstruktiv lider gücə çevrildi. Azərbaycan torpaqlarının deokkupasiyası BMT TŞ-nin münaqişə ilə bağlı qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərinin yerinə yetirilməsi ilə nəticələndi.

İkinci Qarabağ müharibəsində qazanılmış qələbə işğal olunmuş ərazilərimizdə kök salmış transmilli cinayətlərin kökünün kəsilməsinə, terrorçuların və təbii sərvətlərimizi talan edən digər mafioz strukturların torpaqlarımızdan çıxarılmasına imkan verdi. Bu, nəinki ölkəmizin, həm də qlobal təhlükəsizlik mühitinin qeyri-sabit tərkib hissəsi hesab olunan Cənubi Qafqaz regionunun kriminal ünsürlərdən təmizlənməsinə, beynəlxalq neft-qaz və nəqliyyat dəhlizlərinin təhlükəsizliyinə zəmin yaradıb.

Ermənistanın hərbi potensialı (3,8 mlrd. dollar dəyərində hərbi texnikası, şəxsi heyətinin 85 faizi) məhv edildi; işğal edilmiş 7 rayonumuzdan əlavə, separatçı Dağlıq Qarabağ ərazisinin üçdə bir hissəsinə və su təminatının 98-faizinə, həmçinin İrandan-Ermənistana gedən Gorus-Qafan yoluna nəzarət Azərbaycanın əlinə keçmiş oldu.

İkinci Qarabağ müharibəsində 5-ci nəsil müharibələrə xas olan hərbi əməliyyatlar (yüksək-dəqiqlikli silahların və dronların tətbiqi, kinetik və qeyri-kinetik qabiliyyətlərin sinxron istifadəsi və s.) aparmış Azərbaycan ordusunun müvəffəqiyyətli hərbi taktikası dünya hərb tarixində yeni səhifə açmaqla yanaşı, aparıcı ölkələrdə ordu quruculuğuna, hava hücumundan müdafiə sistemlərinin təkmilləşdirilməsinə, hərbi-sənaye komplekslərinin inkişafına, silahlanma proqramlarına və hərbi büdcələrə təsirsiz ötüşməyib [1, 54-63].

44 günlük müharibədə şanlı qələbədən sonra Azərbaycan iki mühüm nəticə də əldə etdi: Cənub Qaz Dəhlizi layihəsi yekunlaşdı (2021-ci ilin yanvarın 1-dən TAP istismara verilib); Azərbaycan və Türkmənistan arasında mübahisəli yataq məsələsi həll olundu. Beləliklə, Xəzərin hüquqi statusundan sonra Transxəzər layihəsinin qarşısındakı daha bir əngəl aradan qaldırıldı [10].

Bundan əlavə, Azərbaycan İrandan Dağlıq Qarabağa daşınan şübhəli yüklərin qarşısını almaqla rəsmi Tehranı ölkəmizin ərazi bütövlüyünə hörmətlə yanaşmağa məcbur etdi.

* *doktorant, Milli Müdafiə Universiteti, Hərbi İdarəetmə İnstitutu*
e-mail: jafarseyidov@yahoo.com

### 1. Deokkupasiyadan bərpa, inkişaf və əməkdaşlığa keçid

Sərhədlərin və kommunikasiyaların açılması ticarət əlaqələrinin yaradılmasına, tranzit və turizm imkanlarının genişlənməsinə, yeni layihələrin meydana gəlməsinə təkan verə bilər.

Xüsusən də Zəngəzur dəhlizinin istismara verilməsi regional blokadanın aradan qaldırılmasına kömək edəcək və bölgədəki bütün dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün zəmin yaradacaq [13].

Zəngəzur dəhlizi Azərbaycanla müxtar respublika arasında birbaşa quru əlaqəsini təmin edəcək. Gələcəkdə Naxçıvan dəmir yolunun Türkiyənin Iqdır şəhərinə uzadılacağının planlaşdırılması Türkiyə ilə Azərbaycan arasında birbaşa əlaqənin yaradılması üçün bir fürsət olacaq.

Həmin dəhliz vasitəsilə Türkiyə Xəzər dənizinə və Mərkəzi Asiyadakı Türk dünyasına birbaşa çıxış əldə edəcək. Gələcəkdə "Şimal-Cənub" və "Yeni İpək Yolu" beynəlxalq nəqliyyat dəhlizinə inteqrasiya olunmaqla Zəngəzur dəhlizi muxtar respublikanın sürətli inkişafına təkan verəcək, Azərbaycan və Türkiyəni beynəlxalq əhəmiyyətli loqistik mərkəzə çevirəcək.

Zəngəzur dəhlizi Ermənistanın da nəqliyyat blokadasından çıxmasına zəmin yaradacaq. Ermənistanın yükləri həmin dəmir yolu ilə Azərbaycan, daha sonra isə Dağıstan ərazisindən keçməklə birbaşa Rusiya ərazisinə çatdırıla biləcək. Daha geniş mənada, bu, Ermənistanın Avrasiya İqtisadi Birliyinin (EAEU) vahid bazarına birbaşa çıxışını təmin edəcək.

Zəngəzur dəhlizinin Rusiya üçün əhəmiyyəti ondan ibarət olacaq ki, o, Ermənistana, Yaxın Şərq bazarlarına, ilk növbədə isə aparıcı xarici ticarət tərəfdaşı olan Türkiyəyə alternativ quru yolu əldə edəcək. Zəngəzur dəhlizi üçtərəfli razılığa əsasən, Rusiya sərhədçiləri tərəfindən qorunacaq.

İran üçün də bu dəhlizin əhəmiyyəti inkaredilməzdir. Qeyd edilən dəhliz İranın gələcəkdə "Şimal-Cənub" və "Yeni İpək Yolu" beynəlxalq nəqliyyat dəhlizindən yararlanmasına, Avrasiya İqtisadi Birliyi (EAEU) ilə ticarət əlaqəsinin qurulmasına və onun bazarına daxil olmasına imkan verəcək.

Postmüharibə dövründə regionda iqtisadi əməkdaşlığa töhfə verəcək prioritet istiqamətlərdən biri də işğaldan azad edilmiş torpaqlarımızın restavrasiyası prosesi hesab edilir. Həmin məqsədlə Azərbaycan 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayırmış və nəzərdə tutulmuş ilin birinci yarısınadək *Qarabağın* yenidən qurulması və *bərpası* üçün qeyd edilən *vəsaitin* cəmi 16.9 faizi xərclənib [7].

Türkiyə, Pakistan, İsrail, İtaliya, Macarıstan, Böyük Britaniya və s. dost dövlətlərin bu prosesdə iştirakı ölkəmizin milli maraqları, təhlükəsizliyi və inkişafı üçün olduqca vacib hesab edilir. Hazırda Türkiyə və İtaliyanın şirkətləri ilə əməkdaşlıq həyata keçirilir. İtaliya şirkətləri enerji sistemində, Türkiyə isə nəqliyyat daxil olmaqla infrastrukturun formalaşmasında yaxından iştirak edir. ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştiraka hazır olduqlarını, xüsusilə su ehtiyatlarının idarə olunmasında, yol və digər infrastrukturun yaradılmasında, rəqəmsal və innovativ texnologiyalar sahəsində əməkdaşlıqda maraqlarını diqqətə çatdırıb [4]. Həmçinin Pakistan da məhz bərpa və yenidənqurma prosesində iştirak etmək niyyətindədir. Böyük Britaniya, Macarıstan və digər ölkələrin, o cümlədən Avropa Birliyini təmsil edən bəzi ölkələrin də bu prosesdə iştirakı istisna deyil.

### 2. Regional geosiyasi nizamın rekonfiqurasiyası (Rusiya-Türkiyə kondominimumu)

Cənubi Qafqazda yeni geosiyasi reallıq yaranıb. Rusiya-Türkiyə kondominimumu regionda əsas aparıcı qüvvəyə çevrilib.

Rusiya üçün Türkiyə NATO-nun daxilində dissident, alyansdaxili mütəşəkkilliyi

pozan aktordur. Rusiya isə Türkiyə üçün rəsmi Ankaranın xarici siyasətinin diversifikasiyası, atom energetikası və hərbi-texniki sahələrdə əməkdaşlığın inkişafı, ABŞ və digər Qərbli müttəfiqləri neytrallaşdıran qüvvə hesab edilir [2].

Rusiya-Türkiyə geosiyasi kondominimumu regionda Qərbin və İranın rolunun zəifləməsinin, ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinin, NATO daxilində həmrəyliyin olmamasının nəticəsi hesab edilir.

28 ildən sonra Azərbaycana sülhməramlı qüvvə kimi qayıdan, dəhlizlərə və anklavlara nəzarəti əlinə keçirən Rusiya Qarabağda plasdarma yiyələnib. Onun həm Azərbaycana, həm də Ermənistana təsiri artıb. Rusiya Dağlıq Qarabağa sülhməramlı kontingent göndərməklə Qafqazda "Serb Kraynası" ssenarisinin təkrarlanmasına yol vermədi. Bu müharibədə Rusiya həm qərbpərəst Paşinyan hökumətindən öz qisasını almış oldu, həm də Xankəndi ətrafında mühasirədə qalmış 25 minlik erməni ordusunu məhv olmaqdan və separatçı rejimin paytaxtını labüd hücumdan qorumaqla, erməni cəmiyyətində xilaskar imici qazanmış oldu.

İkinci Qarabağ müharibəsi postsovet məkanında mühüm bir yeniliyə şahidlik etdi. 2020-ci ilədək heç bir dövlət MBD məkanındakı münaqişələrə bu dərəcə müdaxilə edə bilmə mişdir. Hətta ABŞ və onun NATO-dakı müttəfiqləri 2008-2014-cü illərdə Rusiyanın Gürcüstana və Ukraynaya mənsub Krıma hərbi müdaxiləsinə görə yalnız sanksiyalar tətbiq etməklə kifayətlənməli olmuşlar. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 10-da Bakıda keçirilmiş Qələbə paradında Azərbaycan prezidenti İlham Əliyevlə yanaşı dayanmış, 13 iyun 2021-ci ildə keçirilmiş NATO sammiti öncəsi Azərbaycan-Türkiyə qardaşlığını region üçün sülh və rifah amili adlandırmış, 2 gün sonra isə Şuşada **"Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"**ni imzalamışdır. Atəşkəsə birgə monitorinq qrupuna daxil edilən Türkiyə eyni zamanda açılacağı planlaşdırılan Zəngəzur dəhlizi vasitəsilə Orta Asiyanın türk dünyasına birbaşa çıxış əldə edəcək.

Türkiyə danışıqların və sülhməramlı əməliyyatların əsas mediatoru olmasa da (o Minsk qrupunu radikal şəkildə təftiş edə və ya onu kənarlaşdıra bilməsə də), onun güclənməsi İranı, NATO-dakı bəzi müttəfiqlərini və Minsk qrupunun həmsədrləri olan ABŞ və Fransa da bərk narahat etməkdədir.

Son illər ərzində Türkiyə ilə Rusiya arasında strateji tərəfdaşlığın yüksələn xətt üzrə inkişafı nəzərə çarpmaqdadır. Rəqabətlə xarakterizə edilən əməkdaşlıq rus-türk münasibətlərinin fərqləndirici cəhəti hesab edilir. Suriya və Liviyada fikir ayrılıqlarına baxmayaraq, hər iki ölkə problemlərin həllində ortaq məxrəcə gəlməyi bacarıb. Cənubi Qafqazda da oxşar tendensiya müşahidə edilir.

Türkiyənin İkinci Qarabağ müharibəsindən sonra regionda fəallaşması və bu fəallığın Mərkəzi Asiyaya doğru genişlənməsi ehtimalının yüksək olması Rusiyanın diqqətindən yayınmır. Bununla belə, Rusiyanın neytral mövqe tutması onun acizliyinin nəticəsi deyil, uzağa gedən geosiyasi hesablamasının nəticəsidir. Rusiya çoxqütblü dünya qurur, ABŞ-ın qlobal hegemonluğunu mümkün qədər məhdudlaşdırmağa çalışır. İddialı Ərdoğan isə praktiki olaraq onun bu planına tam cavab verir. Lakin bu əməkdaşlığın müəyyən sərhədlərinin də olduğu istisna edilmir. Belə bir sərhəd Ankaranın Kiyevlə hərbi ortaqlığı və Türkiyə-Azərbaycan ittifaqının həddən artıq reklam edilməsi və Orta Asiyada türk həmrəyliyinin fəallaşmasıdır [9].

### 3. İran: ikili standart siyasətindən açıq təhdid ritorikasına keçid

44 günlük müharibədən sonra Rusiya-Türkiyə münasibətlərinin daha da yaxınlaşmasını, Azərbaycan-Türkiyə-İsrail əməkdaşlığının güclənməsini, Zəngəzur dəhlizinin açılmasının planlaşdırılmasını İran müsbət qəbul etmir, Azərbaycanı və İsraili güc yolu ilə təhdid etməyə cəhd etdi. Bu məqsədlə İran Ermənistanla münasibətləri dərinləşdirməyə, İran körfəzi və Qara dəniz konfiqurasiyasını Şimal-Cənub dəhlizinin əsas arteriyasına

çevirməyə çalışıb.

Təəssüflər olsun ki, İkinci Qarabağ müharibəsinin gedişində və ondan sonra Azərbaycanın möhtəşəm qələbəsini həzm edə bilməyən İran din-məzhəb kartını ortaya atmaqla parlaq qələbəmizə kölgə salmağa çalışıb. Belə ki, müharibənin sonuna yaxın Azərbaycanın getdikcə artmaqda olan üstünlüyündən narahat olan İran hakimiyyəti şimal sərhədinə yaxın ərazilərdə terrorçuların mövcudluğu fikrinə dilə gətirməklə öz xəbis niyyətini üzə çıxarmış oldu. Bundan əlavə, İran rəsmilərinin guya bölgəyə gətirilmiş terrorçuların (Azad Suriya Ordusunun nümayəndələri və türkmənlər) təkfirçi (müsəlman-sünnilər) olduğunu bəhanə gətirərək hadisələrin antişiə və antiiran xarakteri alması haqqında dezinformasiya yaymaqla Türkiyəni terrorizmin sponsoru kimi qələməyə verməyə və ona qarşı xristian və şiə cəbhəsinin açılmasına, müxtəlif xarakterli sanksiyaların qəbul edilməsinə çalışıb. Türkiyəli tədqiqatçı Umut Bəşərin fikrincə, rəsmi Tehran "cihadçıların Qafqaza atılması" fikrini hallandırmaqla əslində gizli şəkildə Ermənistana dəstəyini nümayiş etdirib [12].

Demək olar ki, müharibənin gedişində məlum dezinformasiyadan İran hakimiyyətinin bütün rəsmiləri istifadə etmişlər. Belə ki, İranın xarici işlər naziri Məhəmməd Zərifin hərbi əməliyyatların gedişi zamanı verdiyi bəyanatlardan birində "Qarabağ regionuna İŞİD qüvvələrinin qalıqlarının yerləşdirildiyi və İran İslam dövlətinin öz sərhədlərinin yaxınlığında terrorçu-təkfirçilərin mövcudluğu ilə barışmayacağı" fikri yer almışdır [15]. Həmin bəyanatda Türkiyənin adı çəkilməsə də, üstüörtülü onun əleyhinə bəzi ifadələr yer almışdır. Birincisi Rusiyada qadağan edilmiş İŞİD terrorçu təşkilatının münaqişə zonasına gətirilməsi fikri sətiraltı Türkiyənin ayağına yazılır. Rəsmi Tehran Qarabağ ərazisini beynəlxalq terrorizm ocağı kimi qələmə verməyə, Türkiyəni isə İŞİD-lə işbirliyində suçlandırmağa çalışıb. Bu addım həm də Rusiyanı Türkiyə ilə üz-üzə qoymağa, onlar arasında etimadın pozulmasına hesablanmışdı. Bu bəyanat həmçinin erməni havadarlarının və türk əleyhdarlarının bir araya gəlməsinə hesablandığını təxmin etmək olar.

İran Ermənistanı dəstəkləməsi səbəbindən müharibədən sonra regiona təsir imkanlarını ciddi şəkildə itirib. Bu müharibə nəticəsində Türkiyənin Cənubi Qafqazda rolunun artması, onun Azərbaycanı acıq-aşkar dəstəkləməsi, iyunun ortalarında R.T.Ərdoğanın Şuşaya səfəri və Azərbaycanla hərbi ittifaq haqqında saziş imzalaması, yaxın gələcəkdə istismara veriləcəyi gözlənilən Zəngəzur dəhlizi İranda türk faktorunun rolunun artmasına, Tehran rejiminin Azərbaycana və onun tərkib hissəsi olan Naxçıvana təsir imkanlarının azalmasına gətirəcək.

Ermənistanı dəstəkləməkdə davam etməklə İranın daha ciddi itkilər verəcəyi istisna edilmirdi. Yeni yaranmış geosiyasi şəraitin getdikcə İranın əleyhinə formalaşması nəzərdən yayınmayır: Əfqanıstanda talibanın hakimiyyətə gəlməsi, Türkmənistanla Azərbaycan arasında Dostluq yatağının birgə işlənməsinə dair razlaşmanın əldə edilməsi, Türkiyənin Xəzərdə Azərbaycanla hərbi təlimlər keçirməsi, Fransa və ABŞ-ın 44 günlük müharibənin nəticələrinə əvvəllər verdiyi kəskin reaksiyanın yumşalması, Avropa İttifaqının Azərbaycanla əlqələri genişləndirmək niyyəti və Rusiyanın Türkiyə ilə əməkdaşlığının genişlənməsi rəsmi Tehranı müəyyən kompromis xarakterli manevrlər etməyə vadar etdi. Bunun məntiqi nəticəsi olaraq 2021-ci ilin noyabr ayının 28-də Aşqabadda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı çərçivəsində İran Azərbaycan və Türkmənistanla qaz mübadiləsinə dair üçtərəfli saziş imzalandı. Müqaviləyə əsasən, Türkmənistandan İran vasitəsilə Azərbaycana ildə 1,5-2 milyard kubmetrədək qaz göndəriləcəyi və bu yolla İranın 5 əyalətinin təbii qaza olan ehtiyacının ödəniləcəyi nəzərdə tutulmuşdu.

Ötən il dekabrın 22-də İran XİN rəhbərinin Azərbaycana rəsmi səfəri zamanı ikitərəfli əməkdaşlığın daha da gücləndirilməsi, 3+3 formatının gerçəkləşməsi və İran, Azərbaycan və Gürcüstan ərazisindən keçməklə Fars körfəzi – Qara dəniz marşrutunun yaradılması barədə müzakirələr aparılıb. İranın ölkəmizdəki səfiri S.A.Musəvinin sözlərinə

görə, bu dəhliz Pakistan, İran, Türkiyə arasında və Şimal-Cənub Dəhlizinin (Finlandiya, Rusiya, Azərbaycan, İran, Fars körfəzi və Hindistan) sınaq şəklində istifadəyə verildikdən sonra aktivləşəcəyi təxmin edilirdi. Qeyd edilən marşrut çərçivəsində ötən ilin 22 dekabrında İranın Şərqi Azərbaycan vilayətinin Təbriz şəhərindən üç ölkənin 144 yük maşını ilə yükdaşıma başlanmışdı [9].

Lakin bütün bu yayındırıcı addımlar İranın İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbəsini həzm edə bilməməsini ört-basdır edə bilmədi. Rəsmi Tehranın ikinci dəfə hərbi təlim keçirməsi, Zəngəzur dəhlizinin açılmasına mane olmaq məqsədilə Ermənistana təzyiq göstərməsi, Qafanda İranın baş konsulluğunun açılması və 2023-cü ildə Ermənistan üçün Təbriz şəhərində Baş Konsulluq açmaq niyyəti, KİV-də antiazərbaycan təbliğatının genişlənməsi bumeranq effekti yaratdı. Son iki ayda İranda daxili sabitliyin ciddi şəkildə pozulması və teokratik rejimin dayaqlarının zəifləməsi müşahidə edilməkdədir. Digər tərəfdən İranın Rusiya-Ukrayna müharibəsində rəsmi Moskvaya “Şahed-136” və ”Mohajer” dronlar satması və 700 km-lik məsafəni vurmaq iqtidarında olan "Yer-yer" tipli ballistik raketlər tədarük etmək barədə razılığa gəlməsi Qərbin qəzəbinə səbəb olub. Bir tərəfdən, Qərbin molla rejiminə qarşı mövqeyinin daha da sərtləşməsi və yeni-yeni sanksiyaların qəbul edilməsi ilə müşayiət olunması, digər tərəfdən İranda azərbaycanlıların, bəlucların və digər xalqların öz hüquqları uğrunda mübarizəyə qalxması və ABŞ tərəfindən dəstək alması rəsmi Tehran yaxşı heç nə vəd etmir. Belə bir şəraitdə Rusiya ilə əməkdaşlığın İranı yaranmış vəziyyətdən xilas edəcəyi da ağılabatan görünmür. Hadisələrin bu ssenari ilə inkişafı İranda ən yaxşı halda siyasi rejimin, ən pis halda isə ölkənin inzibati ərazi quruluşunun dəyişilməsi ehtimalını artırır.

### 4. Postmüharibə şəraitində təhlükəsizlik platformalarının diversifikasiyası

İkinci Qarabağ müharibəsi Azərbaycan-Türkiyə-Gürcüstan tandeminin təsir imkanlarının artmasına gətirib. Birincisi, bu Cənubi Qafqazda geosiyasi loqistikanı qeyd edilən tandemin tam şəkildə nəzarətinə keçirib. İkincisi, NATO üzvü olan Türkiyənin regiona de-yure daxil olması Gürcüstanın Avroatlantik məkana doğru irəliləməsi baxımından məqbul sayılır. Bundan əlavə, İrana Azərbaycanın, Türkiyəyə isə Ermənistanın etimadsızlığı, ATƏT-in Minsk qrupunun vasitəçilik prosesindən kənarlaşdırılması, Rusiyanın isə qeyri-obyektiv vasitəçiliyi Gürcüstanın postmüharibə şəraitində mediasiya imkanlarının artması ilə nəticələnib. “**Gürcüstan Azərbaycan və Ermənistan arasında etimadın bərpası prosesinə töhfə vermək istəyir”** – bu sözlər Gürcüstanın Baş naziri İrakli Qaribaşviliyə məxsusdur**.** NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina Gürcüstanda səfər olarkən Cənubi Qafqazın üç ölkəsi arasında siyasi məsləhətləşmələrin keçirilməsi ilə bağlı rəsmi Tbilisi tərəfindən irəli sürülmüş təşəbbüsə görə ona təşəkkür etmiş və Gürcüstanın həqiqətən də Ermənistan və Azərbaycan arasındakı münasibətlərdə çox mühüm və fəal rol oynadığını dilə gətirmişdi [8]. Xatırladaq ki, bir müddət əvvəl Gürcüstanın vasitəçiliyi ilə Ermənistan tərəfindən mina xəritələri Azərbaycana verilmiş, qarşılığında isə Azərbaycan tərəfi erməni əsirlərin bir hissəsini Ermənistana qaytarmışdı.

Ermənistanın “Şant” televiziya şirkətinin siyasi icmalçısı Artyom Yerkanyan Gürcüstanın vasitəçilik missiyasının Gürcüstanın Baş nazirinin daha çox ölkə daxilində “öz şəxsi reytinqinin” və ölkəsinin “bölgədə və dünyada nüfuzunun qaldırılması məsələsini” həll edir. Eyni zamanda burada əsas məqsəd Rusiya amilini zəiflətməkdir, onu regiondan sıxışdırıb çıxarmaq və ya sülhməramlılıq monopoliyasını ləğv etmək, yaxud heç olmasa, məhdudlaşdırmaqdır.

Bundan əlavə, rəsmi Tbilisinin irəli sürdüyü “Dinc qonşuluq təşəbbüsü” də Gürcüstanın ABŞ və Avropa İttifaqının dəstəyi ilə regionda davamlı sülh və sabitliyə nail olunmasında önəmli rol oynaya bilər.

Lakin Rusiyadan fərqli olaraq, Gürcüstanın vasitəçilikdən irəli gələn öhdəlikləri təmin etmək və tərəflərə təsir göstərmək resurslarının olmaması onun davamlı vasitəçiliyinə kölgə salır [5].

**5. Cənubi Qafqazda transregional aktorların yerdəyişməsi (yeni geokonstruksiya)**

44 günlük müharibədə Azərbaycanın tarixi zəfərində bir sıra dost ölkələrin payı danılmazdır. Həmin ölkələrdən biri də İsraildir. Son 30 ildə ölkələrimiz arasında möhkəmlənmiş dostluq telləri bir sıra səbəblərdən irəli gəlir. Birincisi, İsrail Azərbaycanın dövlət müstəqilliyin tanımış ilk ölkələrdən biridir. Siyasət, iqtisadiyyat və təhlükəsizlik sahələrində ölkələrimiz arasında sıx və qarşılıqlı faydaya söykənən münasibətlər qurulub. Əməkdaşlığı inkişaf etdirmək məqsədilə ölkələrimiz arasında 10-dan artıq sənəd imzalanıb və 20 sənəd müzakirə mərhələsindədir [14].

Azərbaycanla hərbi-texniki əməkdaşlığın inkişafında fəal iştirak edən İsrailin bölgədə öz geosiyasi maraqlarının olduğu inkar edilmir. Belə ki, İranın qonşuluğunda yerləşən Azərbaycan regionda İsrail üçün strateji əhəmiyyət kəsb edir.

İsrailin hərbi yardımı Azərbaycan ordusunun qabaqcıl silah və hərbi texnika ilə təchiz edilməsində mühüm rol oynayır. Təkcə son beş ildə Azərbaycan İsraildən xarici silah tədarükünün ümumi həcminin 43%-ni reallaşdıra bilib. 2016-cı ilin dekabrında tərəflər təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında müqavilə imzaladı. Bu müqaviləyə uyğun olaraq, İsrailin silah və hərbi texnikasının Azərbaycana tədarükü sürətlə artmağa başladı [3, 106]. Azərbaycan İsrail silahlarını idxal edən ölkələr arasında liderdir.

İki ölkə arasındakı strateji tərəfdaşlığın effektivliyi İkinci Qarabağ müharibəsində özünü bütün dünyaya göstərdi. “Lora” ballistik raketi və Harop pilotsuz təyyarəsi də daxil olmaqla İsrail silahları Azərbaycanın parlaq qələbəsində mühüm rol oynayıb. İsrail silahlarının İkinci Qarabağ müharibəsində uğurla sınaqdan çıxması beynəlxalq miqyasda ona olan marağı artırıb.

Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada antisemitizm və digər ayrıseçkilik hallarına rast gəlinməyib. Azərbaycan dünyada yeganə müsəlman şiə ölkəsidir ki, İsraillə tam diplomatik əlaqələrə malikdir. Müharibə zamanı Azərbaycan əsilli israillilər erməni təcavüzünə etirazlarını nümayiş etdirmək və Azərbaycanla həmrəy olduqlarını bildirmək üçün mitinq və nümayişlər təşkil etmişdirlər.

Bundan əlavə, yəhudi lobbisinin dünyanın aparıcı ölkələrinin qanunvericilik palatalarında təsir imkanlarını nəzərə alsaq, onlardan ölkəmizə qarşı qərəzli sənədlərin qəbul edilməsinə mane ola biləcək vasitə kimi istifadə etmək mümkündür.

Münasibətlərimizin gələcək perspektivlərinə gəlincə, Vətən müharibəsindən sonra ikitərəfli əlaqələrimizin müxtəlif sahələrdə daha da inkişaf edəcəyi istisna edilmir. Rusiya sülhməramlılarının nəzarətində qalmış ərazilərdən separatçıların tör-töküntülərini təmizləmək və yaxın gələcəkdə həmin əraziləri öz nəzarətimizə qaytarmaq üçün qabaqcıl hərbi texnologiyaya malik İsraillə əməkdaşlığı davam etdirmək olduqca vacibdir. Bu ilin avqust ayında KİV-də Azərbaycanın İsraildən 2 mlrd. dollar dəyərində silah almağa hazırlaşdığı barədə məlumatların yer alması fikrimizin əsassız olmadığına dəlalət edir [3].

İkinci Qarabağ müharibəsi həm də Türkiyə və İsrailin yenidən bir araya gəlməsinə rəvac verib. Regionda Ermənistanın ərazi bütövlüyünü özünün qırmızı xətti hesab edən və türk dünyasının uğurunu həzm edə bilməyən İran  Azərbaycan, Türkiyə və İsraili bir araya gətirə bilən səbəbdir. ABŞ-ın İranla “soyuq müharibəsi” həmin tandemin işinə yaraya bilər. Digər tərəfdən, Aİ-ni tərk etmiş Böyük Britaniyanın Türkiyə və İsraillə sıx əlaqəsi onun da qeyd edilən tandemlə sıx əlaqəsinə dəlalət edir.

**Nəticə**

Keçid bir cümləyə ehtiyac var:

1. İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda geosiyasi reallığı dəyişsə də, davamlı strateji sabitliyin tam təmin edilməsindən əminliklə danışmaq hələ tezdir;

2. Türkiyənin regiona de-yure daxil olması Rusiya və İranın təsir imkanlarının məhdudlaşmasına, Azərbaycan və Gürcüstanın milli müstəqilliyinin və təhlükəsizliyinin möhkəmlənməsinə, Ermənistanın miatsum və setsessiya planlarından əl çəkib regional inteqrasiyaya qoşulmasına, həmçinin tədricən NATO-nun regionda təsirinin dolayı yolla artmasına  zəmin yaradacaq.

3. Cənubi Qafqazda Rusiya-Türkiyə kondominiumunun Azərbaycanın milli təhlükəsizliyinin möhkəmləndirilməsinə verdiyi töhfə inkaredilməzdir. Bir tərəfdən Azərbaycan Rusiyanın ölkəmizə qarşı təzyiqlərin Türkiyə vasitəsilə neytrallaşdırmağa nail olub, digər tərəfdən isə, rəsmi Moskvanı qısqandırmadan öz xarici siyasətini və müdafiə potensialını diversifikasiya etmək şansı qazanıb.

4. İkinci Qarabağ müharibəsinin nəticələri və Rusiya-Ukrayna müharibəsi İranda molla rejiminin dayaqlarının çürüməsinə, daxili sabitliyin pozulmasına və ölkəyə qarşı sanksiya rejiminin daha da sərtləşməsinə gətirib. İranın ciddi dəyişiklik ərəfəsində olması inkaredilməzdir.

5. Dəhlizlərin açılması və Qarabağın bərpası xarici investisiyanın regiona axmasına, nəqliyyat-loqistika imkanlarının genişlənməsinə gətirəcək.

**ƏDƏBİYYAT**


1. Həsimov E., Nəcəfov Z. İkinci Qarabağ müharibəsi müasir müharibə nümunəsi kimi // Milli təhlükəsizlik və hərbi elmlər. Elmi-praktik jurnal, Cild 7, №2, 2021.
2. Барри Д., Казалет М., Лавров А.В., Макиенко К.В., Маркедонов С.М., Нерсисян Л.А., Пухов Р.Н., Тренин Д.В., Хась К., Шеповаленко М.Ю. Буря на Кавказе. Изд. Р.Н.Пухова. Москва: Центр анализа стратегий и технологий, 2021. 128 с.
3. Когут В.Г., Нурышев Г.Н. Карабахский  узел геополитических  противоречий на Южном Кавказе. Москва: Евразийская интеграция: экономика, право, политика, 2021, №1, s.104-111.
4. ABŞ şirkətlərinin daha böyük üstünlüyü var. 00:31 29.01.2021. (https: //sherg.az/iqtisadiyyat/151528)
5. Azərbaycan-Ermənistan arasında kimlər vasitəçi ola bilər? - İNCƏLƏMƏ... 11-12-2021 (http://www.dia.az/8/322470-azerbaycan-ermenistan-arasinda-kimler-vasitechi-ola-biler.html)
6. Azərbaycan İsraildən 2 milyard silah alır. (https: // axar.az/news/gundem/538957.html)
7. Bu il Qarabağın yenidən qurulmasına 372 milyon manat xərclənib: (https: // report.az/maliyye-xeberleri/azerbaycan-bu-il-qarabagin-yeniden-qurulmasina-372-milyon-manat-xercleyib/)
8. Xavyer Kolomina: “Gürcüstan Azərbaycan-Ermənistan münasibətlərində mühüm rol oynayır”. (https: //olke.az/siyaset/248567/xavyer-kolomina-gurcustan-azerbaycan-ermenistan-munasibetlerinde-vacib-rol-oynayir/)
9. İran, Azərbaycan, Gürcüstan arasında yeni dəhliz... (https://axar.az/news/siyaset/609906.html)
10. Türkiyə Xəzərə gəlir: dəniz təliminin hədəfləri... (https://axar.az/news/gundem/586242.html
11. Александр Д. Мифы и реалии Турецкой геополитики. (https://katehon.com/ru/article/mify-i-realii-tureckoy-geopolitiki)
12. Башар У.  Иран в «клубе проигравших» в Карабахской войне? В ходе последней эскалации Иран создавал видимость поддержки Баку, но не предпринимал никаких шагов в отношении Еревана

(https://www.aa.com.tr/ru/%D0%B0%D0%B7%D0%B5%D1%80%D0%B1%D0%B0%D0%B9%D0%B4%D0%B6%D0%B0%D0%BD)
13. Чаблин А. Как Нахичеванский коридор повлияет на страны Южного Кавказа 8 февраля 2021 г., (https://russiancouncil.ru/analytics-and-comments/columns/postsoviet/kak-povliyaet-nakhichevanskiy-koridor-na-strany- южного)
14. Israel HaYom on the strategic partnership between Israel and Azerbaijan (https://azertag.az/ru/xeber/Israel_HaYom_o_strategicheskom_partnerstve_Izrailya_i_Azerbaidzhana-1747853)
15. Zarif on Karabakh conflict: Iran won't tolerate terrorists' presence near borders. (https://www.presstv.com/Detail/2020/11/01/637666/Iran-Zarif-Nagorno-Karabakh-Azerbaijan-Armenia)

***Резюме***

***Джафар Сеидов***

***Послевоенные векторы геополитики Южного Кавказа***

В статье рассматриваются стратегические векторы нового геополитического порядка, сложившегося на Южном Кавказе после исторической победы во Второй карабахской войне. С этой целью уточняются факторы, влияющие на формирование новой геополитической реальности в регионе, и перспективные направления сотрудничества.

Среди детерминант, выделенных в качестве векторов новой геополитической реальности, отдельно анализируются экономико-политические, военные и военно-технические, транспортно-коммуникационные и геоэкономические вопросы.

В статье подробно анализируются причины, по которым Азербайджан стал региональным лидером в послевоенный период, проделанная работа по обеспечению национальной и военной безопасности нашей страны, текущие и дальнейшие перспективы геополитического кондоминиума, установившегося между Россией и Турцией, характер политики Ирана в отношении нашей страны, ограничение влияния тандема США/Запад в регионе и другие вопросы.

Ренессанс турецкой идентичности является одним из вопросов, которым Вторая карабахская война придала серьезный импульс. Предвзятое отношение режима муллы к нашей исторической победе в 44-дневной войне и его явная поддержка Армении привели к нарушению политической стабильности в Иране, подъему азербайджанцев на борьбу за свои права и участию в протестах других национальных меньшинств. Утверждается, что ход событий не сулит Ирану ничего хорошего.

Впервые в регионе после Второй карабахской войны подчеркивается идея создания исторических возможностей для мирного сосуществования. В качестве примера отмечена экономическая выгода Зангезурского коридора для стран региона и важность создания общей системы безопасности. Однако нельзя игнорировать наличие некоторых проблем, препятствующих решению проблем экономики и безопасности в регионе. Примером тому является разнообразие мнений и разные геополитические тенденции в направлении создания проблем безопасности в регионе.

В послевоенный период подчеркивается интернационализация борьбы за влияние в регионе. Эта тенденция объясняется на фоне углубления военного и военно-технического сотрудничества между Израилем и Азербайджаном. Также утверждается, что это сотрудничество не ограничивается двусторонними обязательствами.

***Ключевые слова:*** *Вторая Карабахская война, Южный Кавказ, деоккупация, реконфигурация, геоконструкция*

***Summary***

***Jafar Seyidov***

***Postwar Vectors of South Caucasus Geopolitics***

The article examines the strategic vectors of the new geopolitical order that emerged in the South Caucasus after the historic victory in the Second Karabakh War. For this purpose, factors affecting the formation of a new geopolitical reality in the region and prospective areas of cooperation are clarified. Economic-political, military and military-technical, transport-communication and geo-economic issues are

analyzed separately among the determinants selected as vectors of the new geopolitical reality.

The article deeply analyzes the reasons why Azerbaijan became a regional leader in the post-war period, the work done to ensure the national and military security of our country, the current and future prospects of the geopolitical condominium established between Russia and Turkey, the essence of Iran's policy in relation to our country, and the limitations of the influence of the US/Western tandem in the region and other matters

The renaissance of the Turkish identity is among the issues that the Second Karabakh War gave a serious boost to. Mullah's regime's prejudice against our historic victory in the 44-day war and its clear support for Armenia resulted in the disruption of political stability in Iran, the rise of Azerbaijanis to fight for their rights, and the participation of other national minorities in protests. It is argued that the course of events does not bode well for Iran.

For the first time in the region after the Second Karabakh War, the idea of creating historical opportunities for peaceful coexistence is emphasized. As an example, the economic benefits of the Zangezur corridor for the countries of the region and the importance of creating a common security system are noted. However, the existence of some issues that prevent the solution of economic and security problems in the region cannot be overlooked. An example of this is the diversity of opinions and different geopolitical tendencies in the direction of creating security problems in the region.

In the post-war period, the internationalization of the struggle for influence in the region is emphasized. This trend is explained against the background of the deepening of military and military-technical cooperation between Israel and Azerbaijan. It is also argued that this cooperation is not limited to bilateral obligations.

***Keywords:*** *Second Karabakh War, South Caucasus, deoccupation, reconfiguration, geoconstruction*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.